# "Neokolonializmin müasir təzahürləri ilə mübarizə tərəfdarları Forumu"nun Ekspertlər Şurasının iclası olub

Martın 6-da Milli Məclisin deputatı Nizami Səfərov "Neokolonializmin müasir təzahürləri ilə mübarizə tərəfdarları Forumu"nun Daimi Komitəsinin üzvü qismində qurumun nəzdində yaradılmış Ekspertlər Şurasının iclasında onlayn formatda iştirak edib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, iclasda neokolonializm təzahürlərinin əsarətdən azad olmuş dövlətlərin sosial-iqtisadi inkişafına neqativ təsirləri və onlarla mübarizə mövzusunda müzakirələr aparılıb.




Onlayn iclasda çıxış edən Nizami Səfərov bildirib ki, müasir şəraitdə kolonializmsisteminin süqutundan yarım əsrdən çox vaxt keçsə də, qlobal beynəlxalq gündəmdə iqtisadi bərabərsizlik və post-müstəmləkə dövlətlərinin azad sosial-iqtisadi inkişaf hüquqlarının məhdudlaşdırılması ilə mübarizə problemləri mühüm yeri tutur. Deputat diqqətə çatdırıb ki, bu istiqamətdə dövlətlər yeni çağırışlarla və təhdidlərlə mübarizədə səylərini birləşdirməlidirlər.

***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 7 mart (№51).- S.8.